# “Əsrlərdən gələn sənətimiz”

Azərbaycan Respublikasının Prezidenti Yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə “Gənclər Azad Sahibkarlıq Fəaliyyətində” İctimai Birliyinin keçirtdiyi “Əsrlərdən gələn sənətimiz” layihəsinin 24-26 oktyabr 2015-ci il tarixdə Qəbələ rayonunda təqdimatı keçirildi. Tədbirdə 25-dək gənc və müxtəlif sənətkarlıqla məşğul olan ustalar iştirak etmişdir. Tədbiri Qəbələ QHT təlim və Resurs Mərkəzinin icraçı direktoru Anar Məhərrəmov açaraq qonaqları salamladı. Qəbələ rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov layihənin məqsəd və vəzifələri haqqında danışaraq, layihənin gənclərin peşə istiqamətinə yönələn qrupuna xüsusilə faydalı olacağından bəhs etdi.

Daha sonra layihə haqqında İctimai birliyin sədri Kəmalə Məmmədli məlumat verərək bildirdi ki, “Əsrlərdən gələn sənətimiz” layihəsinin təqdim olunmasında məqsəd itirilməkdə olan sənətlərin dirçəldilməsinə, yerli sənətkarlıq bazarının inkişaf etdirilməsinə, bölgələrdə yaşayan gənclərə qayğı, ümumilikdə, işsizliyin azalmasına və məşğulluğun artırılmasına dəstək olmaqdan ibarətdir.

Birliyin proqram meneceri Nəcimə Əliyeva qeyd etdi ki, təəssüflənirəm ki, sənətkarlıq sahələrimiz çağdaş dövürdə öz tarixi gücünü saxlaya bilməyib və getdikcə məhv olmaq üzrədir. Buna səbəb isə peşəkar sənətkarların barmaqla sayılması və davamçılarının olmamasıdır. Gənclərimizin də həmin sahələrə maraqları yoxdur. Səbəb isə onların bu sahəninin azgəlirli və ya ümumiyyətlə gəlir mənbəyi olmadığını düşünmələridir. Ancaq bizim apardığımız araşdırmalar nəticəsində məlum oldu ki, bu sahəyə həvəs göstərildiyi təqdirdə onu kifayət qədər gəlirli sahəyə çevirmək mümkündür.

Tədbirdə “Dünya Gənclərinin Alyansı” ictimai birliyinin sədri Türkan Sədirova da iştirak etmişdir. “Əsirlərdən gələn sənətimiz” layihəsinə 25 sentyabr 2015-ci il tarixindən start verildi. Layihə altı ay müddətində fəaliyyət göstərəcək İsmayıllı, Gəncə, Şəki, Quba, Qəbələ rayonlarını əhatə edəcək. Gənclər sənətkarlıqla məşğul olmaq üçün həvəsləndiriləcəklər və sənətkarlıq sahələrinin itirilməkdə ola növlərinə cəlb olunacaqlar. Bu sahə ilə məşğul olaraq öz şəxsi bizneslərini yarada bilmələri, həmçinin bazarın düzgün qiymətləndirməsi üçün sahibkarlıqla bağlı təlimlər keçiriləcək. Bununla da gənclər arasında sənətkarlıq üzrə kiçik sahibkarlığın təməli qoyulacaq və qismən də olsa işsizliyin aradan qaldırılmasına köməklik göstəriləcək.

Aparılan sorğu əsasında iştirakçıların mövzu ilə bağlı rəy və təklifləri öyrənilmişdir.

**M. SƏFƏRÇİNOV,**
**gənclər və idman idarəsinin baş məsləhətçisi.**

# Qəbələ Rayon Mərkəzi Kitabxanası inventar və texniki avadanlıqla zənginləşdirilib

Qəbələ rayonunda fəaliyyət göstərən kitabxanaların yeni ədəbiyyatla zənginləşdirilməsinə xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 2004-cü il 12 yanvar tarixli Sərəncamına əsasən hər il müxtəlif mənbələrdən rayonun kitabxanalarına yüzlərlə yeni kitab hədiyyə edilir. Hazırda rayonun mərkəzi kitabxana sisteminin ümumi fondunda 145 mindən çox ədəbiyyat var. Həmin kitablar elmin müxtəlif sahələrini və bədii ədəbiyyatı əhatə edir. Eləcə də kitabxana “İRBİS-64” proqramı ilə işləyir. Bu proqram vasitəsilə kitabxanada olan bütün növ ədəbiyyatların elektron kataloqlaşdırılması həyata keçirilir. Bundan başqa, proqramda oxucuların qeydə alınması, qəzet məqalələrinin kortatekası, retro kataloq, diyarşünaslıq, uşaq ədəbiyyatı, SD disklər və başqa bazalar yaradılmışdır. Bu bazalar üzrə bütün növ elektron resursun həcmi 100 mindən yuxarıdır. Həmçinin Qəbələ Mərkəzləşdirilmiş Kitabxana Sistemində internetlə təmin olunan avtomatlaşdırılmış kitabxana-informasiya sistemi də yaradılmışdır. Kitabxanada yeni veb-sayt istifadəyə verilmişdir. Hazırda rayonun kitabxanaları 18 mindən çox oxucuya xidmət göstərir.

# “Vətənin Müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi uğrunda yarışlar



Gənclər və İdman idarəsinin təşkilatçılığı, rayon təhsil şöbəsinin iştirakı ilə 24 oktyabr 2015-ci il tarixdə Qəbələ şəhər 3 saylı tam orta məktəbində “Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi keçirilmişdir.

Yarışın keçirilməsində məqsəd yeniyetmə və gəncləri vətənin müdafiəsinə mənəvi və fiziki cəhətdən hazırlamaq, gənclərdə vətənə məhəbbət və vətənpərvərlik hissini artırmaq, çağırış və çağırış yaşına qədərki gənclərin hərbi hazırlığının gücləndirilməsi, idmançılarda yarış təcrübəsini və ustalığı artırmaqdan ibarətdir.

Tədbirin açılış mərasimində Qəbələ rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov komandaları salamlayaraq respublikada idmana göstərilən dövlət qayğısından danışmış, yarışın məqsəd və vəzifələri barədə məlumat verərək idmançılara nailiyyətlər arzulamışdır.

Beynəlxalq Poliatlon Çoxnövçülüyü Assosiasiyasının qaydalarına əsasən 100 metr məsafəyə qaçış, turnikdə dartınma və qumbaraatma üzrə keçirilən birincilikdə rayonun tam orta məktəblərindən 20-dək komanda iştirak etmişdir.

Yarışın yekun nəticəsinə əsasən Əmirvan kənd tam orta məktəbin komandası I, Vəndam qəsəbə 1 saylı tam orta məktəbin komandası II və Qəbələ şəhər 2 saylı tam orta məktəbin komandası III yeri tutmuşlar. Qalib komandalara Gənclər və İdman idarəsinin diplomları təqdim edilmişdir. Birinci yeri tutmuş komanda respublika çempionatının zona mərhələsində iştirak etmək üçün vəsiqə qazanmışdır.

**Elçin OSMANOV,**
**Gənclər və İdman idarəsinin aparıcı məsləhətçisi.**

# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixli 9 saylı qərarla Vəndam kənd sakini Əfəndiyev Fuad İbrahim oğlunun adına verilmiş JN-755A (kod 40600048) olan Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 23 fevral 2001-ci il tarixli 3 saylı qərarla Qəbələ şəhər sakini Xasməmmədov Əhmədiyyə Cuvani oğlunun və ailə üzvlərinin adına verilmiş JN-1414F (kod 40601004) olan Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 iyun 1998-ci il tarixdə Söhbətov Firudin Feyruz oğlunun adına verilmiş 1679A (kod 40600048) olan Torpağın mülkiyyət hüququna dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 fevral 1999-cu il tarixdə 04 saylı qərarla Nic qəsəbə (kənd) sakini Süleymanov Əfsər Sərdar oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 130 №-li (kodu 40600068) Torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Resprublikası Əmlak Məsələləri Dövlət Kolmitəsi Yanunda Daşınmaz Əmlakın Dövlət Reystri Xidməti 9 saylı Ərazi İdarəsi tərəfindən Əfsərbəyli Afşin Hakim oğlunun adına verilmiş reystr № 406013060689 olan Torpaq sahəsinin plan ölçüsü barədə sənəd itdiyi üçün etibarsız sayılır.

---

Şəki RQİŞ tərəfindən 16 iyul 2011-ci il tarixdə Qəbələ Rayonu Mamaylı kənd sakini Muradxanov Kamran Qalib oğlunun adına verilmmiş AB 635039 №-li sürücülüq vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 15 may 1998-ci il tarixli 09 saylı qərarla Corlu kənd sakini Mamedova Nurya Hidayət qızının adına verilmiş JN-304 F nömrəli(kod 40613005) olan Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdyii üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Şimal-Qərb regional mərkəzinin kollektivi iş yoldaşları **Məqbul Məmmədova,** qaynanası

**LƏTAFƏT XANIMIN**

vəfatı münasibətilə dərin hüznlə başsağlığı verir.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
N. R. Atakişiyev.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.